| | |
|---|---|
| Ravil Saleh oğlu Baybekov |  |

Ravil Saleh oğlu Baybekov 3 aprel 1957-ci ildə Bakı şəhərində anadan olub. 1975-1980-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri institutunda təhsil alıb. 1980- 1990 “Bakıdövlətlayihə” institutunda baş memar aparıcı memar, qrup rəhbəri, 1990-1992 Azərbaycan SSRİ EA Memarlıq və İncəsənət institutu nəzdində “Memar” kooperativ klubun sədri işləyib.

1992- 1999 “S Modus” MMC-də memar, 1999- 2011 “EL&EN” memarlıq şirkətinon aparıcı memarı işləyib. 2011- 2012 “Kapitel“ memarlıq şirkətində baş memar, 2012-2014 “S Modus” MMC-nin baş mütəxəssisi, 2014- 2017 “Memar -R ” memarlıq şirkətinin direktoru və baş memarı işləyib. 2017-ci ildən etibarən “Archite Konst” MMC-də baş memar vəzifəsində çalışır. Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvüdür.

“Ustad memar” sertifikatı (2016), Azərbaycanın Əməkdar memarı (2017), Azərbaycan Memarlar İttifaqı tərəfindən və Beynəlxalq Memarlar İttifaqlarının Assosiasiyasının bir sıra mükafatları ilə təltif olunub. Azərbaycan Respublikası Memarlar İttifaqı tərəfindən Çoxillik yaradıcılıq fəaliyyətinə görə Fəxri Fərmanla (2017) təltif olunub.